**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

# F Ə R M A N I

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra - Nazirlik) yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidmətinin əsasında Nazirliyin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti (bundan sonra - Xidmət) və Nazirliyin tabeliyində “Dövlət Ekoloji Ekspertiza Agentliyi” publik hüquqi şəxs (bundan sonra - Agentlik) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Agentlik “Ətraf mühitin mühafizəsi haqqında”, “Ekoloji təhlükəsizlik haqqında” və “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq təsərrüfat və digər fəaliyyətlərin dövlət ekoloji ekspertizasından keçirilməsi də daxil olmaqla, ekoloji təhlükəsizliyin tələblərinə uyğunluğunu müəyyən edən, habelə bu sahədə xidmətlər göstərən publik hüquqi şəxsdir;

2.2. Agentlik “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındığı günədək Nazirliyin yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti öz fəaliyyətini davam etdirir və strukturu, işçilərinin say həddi, əməkhaqları (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) və əməyin ödənilməsi sistemi saxlanılır.

3. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

3.1.1. Agentliyin yenidən təşkili və ləğv edilməsi;

3.1.2. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.1.3. Agentliyin idarəetmə orqanlarının yaradılması;

3.2. Nazirliyə:

3.2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Agentliyin idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2.2. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla təsdiqi;

3.2.3. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Xidmətin əsasnaməsinin layihəsini iki ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etsin;

4.2. Agentliyin nizamnaməsinin layihəsini iki ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etsin;

4.3. Agentlik dövlət qeydiyyatına alındığı gündən iki ay müddətində Nazirliyin yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidmətinin balansındakı əmlakın yeni yaranacaq Xidmət və Agentlik arasında bölgüsünü həyata keçirsin;

4.4. Nazirliyin tabeliyində əlvan və qara metal tullantıları istisna olmaqla, təhlükəli tullantıların, o cümlədən istehsalat, tibbi, yararsız tullantıların, zərərli kimyəvi maddələrin, civə və civə birləşmələrinin yığılması (toplanması), daşınması, yerləşdirilməsi, çeşidlənməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə işləri həyata keçirən məhdud məsuliyyətli cəmiyyətin təsis edilməsi ilə bağlı tədbirlər görsün;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Nazirlik:

5.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.2. Agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6-cı hissədə "43" rəqəmləri "50" rəqəmləri ilə, "Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti" sözləri "Dövlət Ekoloji Təhlükəsizlik Xidməti" sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturu"nun 2-ci hissəsində "Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidməti" sözləri "Dövlət Ekoloji Təhlükəsizlik Xidməti" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 25 dekabr 2024-cü il
№ 6-VII FR